**UOT 791-2/-5**

**Şəhla Kərim qızı Heydərli**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Dissertant**
**E-mail: rejissor_71@mail.ru**

# REJİSSORUN YARADICILIQ LABORATORİYASI

**Xülasə:** Rejissor səhnə planı əsasında tamaşanı səhnələşdirən və tamaşanın yaradılmasında bütün iştirakçıların – aktyorların, rəssamın, bəstəkarın və s. əməyini idarə edən başlıca qüvvədir. Nemiroviç-Dançenkonun dediyi kimi, gələcək tamaşa "toxumundan" yetişir, rejissorun niyyətində və təfsirində ən mühüm, ən vacib olanı müəyyənləşdirir. Bütün tamaşanın obrazlı həllini müəyyən edən tamaşanın səhnələşdirilməsi beyində nəyi oyadır kimi sualların cavabı ilə sıx bağlıdır. Tamaşaçıya hansı istiqamətdə təsir göstərməlidir. Əlbəttə tamaşanın əsasını təşkil edən pyesdən başlamaq əsasdır.

**Açar sözlər:** teatr, rejissor, aktyor, tamaşa

Rejissor səhnə planı əsasında tamaşanın yaradılmasında bütün yaradıcı heyətin – aktyorların, rəssamın, bəstəkarın və s. istedad potensialını bədii konsepsiya ətrafında birləşdirən simadır. V.Nemiroviç-Dançenkonun təbirincə desək, tamaşa "toxumundan" yetişir və rejissorun niyyətində və təfsirində ən mühüm, ən vacib olanı müəyyənləşdirir.

Tamaşanın obrazlı həlli hansı fikri formalaşdırmalı və tamaşaçıya hansı istiqamətdə təsir göstərməlidir? Burada hər şeydən əvvəl tamaşanın dramaturji materialı dərindən öyrənilməlidir. Məsələn Tofiq Kazımovun quruluş verdiyi "Antoni Kleopatra"nın təcəssüm prosesinin ayrı-ayrı məqamlarının əks olunduğu qeydlərində müəyyən fikrin işarələri qoyurdu. Həmin tamaşanın mövzusu ilə bağlı onun qeydləri belədir: "mövzu – hər şey məhəbbətə qurban, cəngavərlik, şöhrət, rəşadət, qəhrəmanlıq, nəhayət, hakimiyyət". Görünür, bu qeydlər hər iki qəhrəmanla bağlı olub, onların psixoloji niyyətini və əməl xəttini nəzərdə tutur. Tamaşanın qeyd dəftəri T.Kazımovun məşq prosesində yozum məntiqini, ayrı-ayrı epizodların quruluş həllini aydın əks etdirir. Gələcək tamaşanın yeddinci, on ikinci, iyirminci epizodlarının onu ciddi narahat etdiyi qeydlərindən bəlli olur. Məsələn, T.Kazımovun xəsis ifadələrlə edilən "7-ci şəkil maraqlı deyil", "20-ci epizodda mizansena yaxşı deyil", "Bunu işləməli, yaxşı işləməli" və s. qeydləri diqqəti cəlb edir [1].

Nemiroviç-Dançenko qeyd edirdi ki, "Üç həqiqət" (başqa sözlə – "üç qavrayış", "üç dalğa") – həyati, sosial və teatral, bir-biri ilə sıx bağlıdır. Əgər rejissor sosial həqiqəti onun həyati əsasına məhəl qoymadan üzə çıxarmağa çalışırsa, onda sosial həqiqət inandırıcı görünmür. Sosial həqiqətdən kənar

götürülən həyati həqiqət xırda, səthi, ibtidai naturalist iddiaya səbəb olur. Amma həm həyati, həm də ictimai həqiqətlər, onların təcəssümü üçün ifadəli teatr tapılmadıqca üzə çıxa bilməz. Hər ikisini teatr həqiqətinə çevirən forma və sistemdir. Bəlli həqiqətlərə görə, teatrı bir sənət olaraq qüdrətli aktyor fərdiyyətləri yaşatmışdır və həmin fərdlər uzunillik yaradıcılıq fəaliyyətləri nəticəsində öz auditoriyasını qazanmış, rejissorların yaradıcılıq işlərinin ən etibarlı ifadəçiləri olaraq dramaturgiyanın səhnə məkanında təcəssümü işinə fədakarlıqla xidmət etmişlər [2; s.36].

Gələcək tamaşanın həqiqəti, bu tamaşanın bədii estetik səhnə həlli, aktyorlarla ifa tərzini və janrını müəyyən edən xüsusi tələblərin qoyulması başqa sözlə, aktyorluq texnikasının elementlərinin (həm daxili, həm də xarici) ön plana çıxarılmasından irəli gəlir. Tamaşanın bədii bütöv kimi ərsəyə bütün komponentlərin vahid oyun partiturasında ifadəli səhnə təcəssümündə təqdim edilməsi ilə mənalanır. Belə ki, tamaşanın başlıca ideya daşıyıcısı olan aktyorun əsas inşaat materialı kimi istifadə edəcəyi bədəninin, səsinin, nitqinin, psixoloji məziyyətlərinin və s. müxtəlif məşğələlər sayəsində cilalanması rol üzərindəki iş mərhələsində olduqca böyük əhəmiyyət kəsb edir [2; s.263].

Tamaşanın ideya-bədii uğuru təbii olaraq rejissor konsepsiyasının oyun şərtləri daxilində ifadə edilməsi ilə birbaşa bağlıdır. Başqa sözlə desək, tamaşanın ümumi konsepsiyasının estetik realizəsi məqsədilə rəssamla əməkdaşlıq, müəyyən tapşırıqlar vermək, onun dekorasiya eskizlərini, geyimlərini, maketlərini və s. bərabər işləmək vacibdir. Odur ki, rəssam tərəfindən məkan və zaman məsələsinin konkretləşdirilməsi, digər tərəfdən rejissorun həmin ideya-bədii şərtlər daxilindəki aktyorlarla işi gələcək tamaşanın səhnə taleyini müəyyən edən başlıca amildir. Bəstəkarla işləməyin də öz xüsusiyyətləri var. Belə ki, o, tamaşanın konseptual bədii tələblərinə müvafiq, oyunun estetik ovqatını ifadə edən əsər yazmaqla tamaşaçıya təsir qüvvəsinin artmasını təmin edir.

Tamaşanın bütün komponentlərinin vahid bədii bütövlükdə toplanmasında rejissorun təşkilatçılıq rolu nə qədər əhəmiyyətli olsa da, rejissorluq fəaliyyətinin başlıca mənası onun aktyorlarla işləmək bacarığı ilə bağlıdır. “Öz fikrini əsasən aktyor sənəti ilə ifadə etmək istəyi və bacarığı həmişə yetkin rejissor məharətinin əlaməti olub” [4; s.32].

Rejissorun bədii üslubu – rejissorla aktyorun yaradıcılıq əməkdaşlığının formalaşmasını təmin edən əsas məsələlərdən biridir. Bəzən rejissorların diktəsi səhnə oyununun canlı bədii hüceyrəsini zədələyir, aktyoru saxta ifaya, öz rolunun illüstrativ təqdim etməyə sövq edir. Bu zaman rejissorun iradəsinə mexaniki şəkildə tabe olan aktyor müstəqil yaradıcılıq təşəbbüslərindən məhrum olur. Stanislavski öz pedaqoji oçerklərindən birində yazırdı: “Bizim işimiz yaradıcılığı öyrətmək deyil, onların fərdi yaradıcılığını lazım olan

istiqamətə yönəltmək, onlarda təbii qanunlara riayət tələbi ilə zövq tərbiyə etmək, ən sadə məsələni sənət səviyyəsinə, mütləq həqiqətə və tam texniki kamilliyə çatdırmaqdır" [2].

Rejissorun vəzifəsi aktyorla səhnə işinin mahiyyətində onu ali məqsədə yönəltmək, yaradıcılıq təşəbbüslərinə rəvac verməkdir. Məhz belə olan halda rejissor aktyoru orqaniklik yoluna yönəldir və tamaşa o zaman uğurlu sayıla bilər ki, burada rejissorun aktyorla münasibətində həmrəylik münasibətləri qurulsun.

Tamaşa hazırlığı prosesini bir qayda olaraq iki mərhələyə ayırırlar. Birinci mərhələ tamaşa üzərində işin stolarxası məşq prosesini əhatə edir. Bu zaman rejissor aktyorları öz ideyasının əsas elementləri ilə tanış edir və onlarla birlikdə tamaşanın təhlili işini görür, səhnə təcəssümünün yozum prinsiplərini izah edir (şəkillərin müzakirəsi, personajlar arasındakı münasibətin aydınlaşdırılması, obrazların müəyyənləşdirilməsi). Bu mərhələdə rejissorun başlıca məqsədi ifaçı aktyorların təşəbbüskarlığını, yaradıcılıq fəallığını oyatmaq gələcək tamaşanın ali məqsədi, ayrı-ayrı obrazların yozumu ilə bağlı düşüncələri düzgün istiqamətə yönəltməklə şərtlənir.

Bu mərhələdə həmçinin hər bir rolun əməl xətti qurulur, konflikt aydınlaşdırılır, hadisələrin inkişaf dinamikası bütövlükdə tamaşanın müəyyən edilir, ayrı-ayrı personajların səhnə fəaliyyətinin məntiqi və ardıcıllığı üzə çıxarılır. Mətnaltı mənalar, ikinci plan müzakirə olunur və canlı yaradıcılığa başlamağa cəhd edilir. Bundan başqa tərəf müqabillər arasında ünsiyyətin mahiyyəti öyrənilir. Bu mərhələdə həmçinin rejissorun iradəsi ilə aktyorlar bəzən masa başında planlaşdırdıqlarını canlı hərəkətdə yoxlamaq və düzəltmək üçün masadan qalxırlar (bəzi rejissorlar bunun üçün etüd üsulundan geniş istifadə edirlər). Təcrübə göstərir ki, "masa" dövrü düzgün, məqsədyönlü aparılarsa, xeyli fayda verə bilər.

Tamaşa üzərindəki işin ikinci mərhələsi təcəssüm prosesinə keçiddir. Gələcək tamaşanın bədii həlli işlənilir, eləcə də səhnə-qrafik məsələləri həll edilir. Bu zaman rejissor işinin məzmunu mizan-səhnə axtarışında təzahür edir. Belə ki, rejissor fikrinin obrazlı ifadəsinin ən mühüm vasitələrindən biri, performans elementləri bu mərhələdə özünü büruzə verir. Beləliklə, rejissorun səhnə mizanları aktyorların oyununda "danışır".

Tamaşa üzərində işin sonrakı mərhələsi səhnədə baş verir. Bu zaman tamaşanın son tamamlanması, onun cilalanması həyata keçirilir. Bütün elementlər əlaqələndirilir – aktyor oyunu, zahiri dizayn, işıqlandırma, qrim, kostyumlar, musiqi, səs-küy və s. – tamaşanın tam obrazının yaradılması prosesi yekunlaşır. Bununla belə, premyeradan sonra da tamaşa üzərində iş dayanmır. Rejissor şərhlər yazmaqla, mizan-səhnələrin qəlibini dəqiqləşdirməklə, düzəlişlər etməklə bir müddət tamaşanı təkmilləşdirir. Bu isə özlüyündə tamaşanın uzunömürlülüyünün artmasına ən etibarlı təminatçıdır.

## Ədəbiyyat siyahısı:

1. İsrafilov İ. "Tofiq Kazımovun rejissor dərsləri" Bakı 2013
2. İsrafilov İ. "Stanislavki və aktyor sənətinin qrammatikası" Bakı 2021
3. İsrafilov İ. "Zaman rejissor poetika"
4. Popov A.D. "Tamaşanın bədii bütövlüyü" Bakı 1959

**Шахла Керим кызы Гейдарлы**

## ТВОРЧЕСКАЯ ЛАБОРАТОРИЯ РЕЖИССЁРА

**Резюме:** Режиссер ставит спектакль на основе постановочного замысла и руководит работой всех участников создания (постановки) спектакля – актёров, художника, композитора и др. Как говорил В.И.Немирович-Данченко, будущий спектакль вырастает из "зерна", определяя которое режиссёр фиксирует самое важное, самое главное в своём режиссёрском замысле и толковании пьесы.

Постановка пьесы, определяющая образное решение всей пьесы, тесно связана с ответом на вопросы: ради чего ставится данная пьеса, что она должна вызвать в сознании зрителя, в каком направлении на него воздействовать, как то, что пробуждается в мозгу. Приступая к работе над пьесой, являющейся основой спектакля, режиссёр средствами театра раскрывает её идейную направленность.

**Ключевые слова:** театр, режиссёр, актёр, спектакль.

**Shahla Kerim gizi Heydarli**

## CREATIVE LABORATORY OF A DIRECTOR

**Summary:** The director stages a performance based on the wall plan and all participants in the creation of the performance - actors, artists, composers, etc. is the main force controlling his work. As Nemirovich-Danchenko says, the future performance grows out of its "seed", determines the most important thing, the most important thing in the director's idea and interpretation.

The setting of the play, which determines the figurative solution of the whole play, is closely related to the answer to such questions as what is awakened in the brain. In what direction should this affect the audience? Of course, it is important to start with the play, which is the basis of the play.

**Key words:** Theater, director, actor, performance.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 30.09.2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Elçin Cəfərov**